Bəşirqızı Zərifə. Bayrağını cibinə, silahını bağrına basdı... // Xalq qəzeti. - 2022. - 23 oktyabr. - № 232. - S. 7.

...Şəhid Elçin Zamin oğlu Hüseynov 1992-ci ildə Bakıda doğulsa da, orta təsilinə Sumqayıtdakı 9 saylı tam orta məktəbində başlayıb. 2012-ci ildə Sumqayıt Dövlət Texniki Kollecinin gömrük işi fakültəsini bitirib. Özünü dərk edəndən anasını hərbi geyimdə görməyə alışıb. Peşəyə yaranan sevgisinə görə o, 2014-cü ildə həqiqi hərbi xidmətini başa vurandan sonra Azərbaycan Silahlı Qüvvələrinin Bakı korpusunun, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu (MAXE) olaraq snayper kəşfiyyatçı vəzifəsində xidmətə başlayıb. 2016-cı ilin Aprel döyüşləri zamanı könüllü olaraq ön cəbhəyə yollanması barədə komandanlığa müraciət edib. Komandanlıq Elçinin müraciətini nəzərə alaraq, onu "N" saylı hərbi hissəyə köçürüb.

...Söhbət Mətanət xanımın oğlundan gedir.

Elçin Hüseynov işğal altında olan ərazilərimizin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan döyüşlərində ağır yaralanıb. Silahdaşları ilə birlikdə mühasirədə qalıb. Lakin ölümü gözə alaraq, yüksəkliyi aşıb, düşmənin olduğu sahəyə daxil olub. Yaralı vəziyyətdə də döyüşə davam edib. Kəşfiyyatçıların dediyinə görə, Elçin şəhid olanda iki dəfə güllə yarası alıb. Uzandığı yerdən qalxıb, komandirinin rabitə ilə geri qayıtmaq əmrinə "gözləyin" – deyib. "Mübariz" postundan digər posta adlayarkən, düşmənlə üzbəüz dayanıb. İkinci güllə dəyməzdən öncə özündə güc tapıb bir neçə ermənini cəhənnəmə vasil edib. Başından dəyən ikinci güllədən sonra uzandığı yerdə bir neçə saniyəyə zirehini çıxarıb, içindəki bayrağı cibinə qoyub, silahını qucaqlayıb və həmin yerdə də şəhid olub. Şəhidin nəşini götürmək üçün bütün kəşfiyyatçı yoldaşları 15 gün əllərindən gələni ediblər. Döyüşçülərimiz tərəfindən düşmən arxaya qovulandan sonra Elçinin cəsədini ərazidən götürmək mümkün olub. Beləcə, igid bir gəncin ömür yolu 28 yaşında yarımçıq qalıb...

Elçinin bir arzusu olub – Şuşanın azadlığı! Onun həyatı ancaq post və səngərlərdən ibarət olub. Öz arzuları uğrunda da bu dünyadan gedib... Ölümündən sonra Elçin Hüseynovun Vətən müharibəsindəki şücaəti "Ağdamın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Vətən uğrunda" medalları ilə təltifləndirilib.

Anası Mətanət Məhərrəmovadan yarasının közünü qoparıb soruşuram: "Elçinsiz necə yaşayırsan?" Yana-yana "Necə yaşayacağam?"– deyir. "Oğlu ilə bağlı arzuları puç olan analar necə yaşayar? Elə gün olmur ki, mən onu düşünməyim, sözlərini xatırlamayım, hərəkətlərini yada salmayım. Oğlum olduğuna görə demirəm. Onun qədər ürəyi mərhəmətli bir kimsə görməmişəm. Elçin müharibə başlamazdan öncə hərbçi yoldaşının övladının əməliyyatı üçün bankdan öz adına kredit götürmüşdü. Şəhidliyindən sonra Azərbaycan Beynəlxalq Bankı həmin borcu sildi. Belə ürəyi vardı oğlumun. 2000–2017-ci illərdə Sumqayıt hərbi

hospitalında tibb bacısı işləmişəm. Gözümün önündə o qədər təsirli hadisələr baş verib ki... Elçin kimi başqasına can yandırana rast gəlməmişəm.
Sonradan onun döyüş yoldaşları ilə çox görüşmüşəm. Danışırlar ki, tabeliyində olan əsgərlərlə qardaş kimi davranıb. Yeşiklə dondurma, siqaret alaraq uşaqlara paylayıb, telefonlarına kontur yükləyib, yanlarında özünü ailə başçısı kimi aparıb. Əsgərlərdən biri danışırdı ki, ad günümdə postda növbədə idim. Gözüm yolda qalmışdı ki, evdən nəsə göndərəcəklər. Bir də gördük, taksi dayandı: yemək-içmək dolu qutular... Sən demə, bütün bunları ad günümlə bağlı Elçin kafedən sifarişlə gətizdirib. Postdakı növbəmi başqası ilə dəyişdi. Ona dedi ki, yemək-içmək götür, sən posta get, sonra da o səni əvəzləyər".
Ananın üzündə o qədər iztirab var ki...  "Elçin müharibəyə könüllü getmişdi. O gedəndən sonra gözaltısı olduğunu öyrəndim. Söhbəti açanda "müharibədən qayıdandan sonra nişan edərik"– dedi. Qayıdacağına çox əmin idi. Mənə ürək-dirək verirdi ki, "heç narahat olma. Bir də eşidəcəksən ki, Qələbə qazanmışıq, erməniləri məhv etmişik". İnanın ki, müharibəyə gülə-gülə getdi. Döyüşçü yoldaşları deyirdilər ki, Elçin ölümün də üstünə gülə-gülə gedib. O, həm kəşfiyyatçı, həm də snayperçi idi. Hərbçi yoldaşlarından ötrü canını qurban verməyə hazır idi və verdi. Özü ilə də razılaşmışdıq ki, oktyabrda nişanlayaq. Amma, sən saydığını say...
Oktyabrın 2-də Elçinin Suqovşan şəhid olması xəbəri gəldi. Nəşi 15 gün neytal ərazidə qaldı. Oktyabrın 17-də Sumqayıtdakı Şəhidlər xiyabanında dəfn etdik. Ölümündən sonra dövlət başçımızın sərəncamları ilə aldığı medallar təsəllimizdir".
Dövlət tərəfindən şəhid ailələrinə, qazilərə sonsuz diqqət, qayğı göstərilir. Bu, onların sağalmaz yaralarına təsəlli, təskinlikdir.  Vətəni  Vətən edən belə qəhrəman oğullardır.  Qəhərlənən Mətanət xanım söhbətini belə bitirir: "Nə qədər yansam, sızlasam da başım dik, alnım açıqdır ki, bu azadlıqda mənim balamın da payı var. Keçmiş hərbçi kimi ən böyük təsəllim Ermənistanın 30 illik işğalına son qoyulması, torpaqlarımızın azad edilməsidir. Bu şərəfli işdə oğlumun da xidməti var deyə, daha çox qürur duyuram".